

HƏSƏN SƏFƏRİ

# Azərbaycan əzəli türk yurdu

Türk tarixi ilə azacıq tanış olan tədqiqatçı Azərbaycan tarixini araşdırarkən türklərin, bu yurdun əzəli sahibi və sakini olmalarına dair elə faktlar əldə edir ki, az qala çaşıb qalır. Belə vəziyyətdə həmin tədqiqatçı bilmir mövcud faktlara inansın yoxsa Ariyaçı (Ariya, Hind-Avropa dilli xalqlara xüsusilə iran dilli xalqlara aid uydurma soyun adıdır.) tarixçilərin milyardlarla insanlarda formalaşdırdığı təsəvvürə. Absurd "ariayizm" nəzəriyəsi neçə əsrdir, dünya imperialistləri və onların çaldığı havaya oynayan bəzi İran tarixçiləri tərəfindən bəşəriyyətə, xüsusilə Azərbaycan türklərinə aşılanır. Bu absurd nəzəriyyə o qədər güclü təbliğ olunur ki, təəssüflə tarixi gerçəklikləri pərdələyə bilib. Mövzudan kənara çıxsaq da məsələyə aydınlıq gətirmək məqsədilə qısa şəkildə ariyaçıların oyunbazlıqlarına işarə etmək məcburiyyətindəyik:

*Qərbdə irqçı baxışlı alimlər, onların təsirinə düşənlər özlərində kimlik hissi yaratmaq məqsədilə, xəyalı da olsa yeni və guya üstün soy anlayışı formalaşdırmağa başladılar. "Dilçilər arasında yayılan bu absurd və xəyali fikirlərin davamında Kristiyən Lasen israr etdi ki, Hind-Jermən və ya Hind-Avropa qohum dilləri qrupuna "ariyai" adı verilsin, ariyai adı ilk insan qrupuna da aid edilsin".*[1]

*Bir çox belə irqçılar, o cümlədən "Qobino müstəmləkəçi kapitalist ölkələri və hətta müstəmləkə edilmiş ölkələrin tarixçi, siyasətçi və yazıçılarının baxışı və təfəkkürünə təsir göstərib, heç bir elmi və tarixi əsası olmayan "ariya soyu nəzəriyyəsini" onlara aşılayıb, yaymağa başladılar".*[2] *Daha sonra "şərqşünaslarla müstəmləkəçi dövlətlər bilərək və ya bilmədən əməkdaşlıq edirlər. Şərqşünaslar, Şərqi təsəvvürlərində tanımağa, müstəmləkəçilər isə Şərqə yiyələnməyə başladılar. Bu məsələnin baş tutmasında müstəmləkəçi siyasətçilər və ali təhsilli şərqşünasların irqçı və müstəmləkəçilik məqsədləri böyük rol oynadı".*[3]

*Qərb və onun müstəmləkəçi siyasətçiləri eləcə də onların qulluğunda olan, xüsusilə şərqşünas tədqiqatçılar, absurd ariyai nəzəriyyəsinə söykənərək, İranda farsları da öz mənafeləri istiqamətində öyməyə başladılar. Onlar İran ziyalıları, o cümlədən Ağaxan Kermani və başqalarına təsir göstərməkdən əlavə, elmi şəkildə fars sülaləsinin hakimiyyətə gətirilməsində əllərindən gələni əsirgəmədilər. Dünyanın böyük müstəmləkəçi ölkəsi–İngiltərənin bir başa iştiraki ilə həmin istiqamətdə İranda qatı millətçilik hisslərini təhrik edən Ərdəşir Cey Riporter İngiltərə səfirliyinin siyasi məsləhətçisi kimi Tehrana göndərildi. Ərdəşir Cey Riporter öz xatirələrində yazdığı kimi, bütün gücü ilə iranpərəstlik və iransevərlik hissinin aşılanmasında çalışıb. Bundan əlavə "Ərdəşir Cey Riporterin İranda əsas rolu İrançı bir şəxsi (Rza xanı) tapmaq, yetişdirmək, onu tanıtmaq və onunla birlikdə, onun hakimiyyətə gətirilməsinə zəmin yaratmaqdan ibarət olub. Onun Sər Persi Sayks, Ser Denis Rait, Lord Lington və başqa İngiltərə məmurları ilə çox yaxın və mehriban münasibəti var idi. İngiltərə dövlət kabineti onu xüsusi məsləhətçi kimi Tehrana göndərmişdi".*[4]

*Dünya imperializminin mənafei doğrultusunda, onların verdiyi ideya və hətta bir başa iştiraki ilə tarix, absurd və xəyali ariyailərin timsalında farsların xeyrinə təhrif edildi. Bu prosesin davamında İranda da Kəsrəvilər meydana çıxarıldı. Heç bir mötəbər fakt və dəlilə əsaslanmadan Azərbaycan tarixi təhrif edildi. İran dilli xalqların regiona gəlməsindən qabaq, neçe minillik Azərbaycan tarixi, sankı yoximiş kimi, danıldı və bu qədim diyara qondarma tarix sırındı. Həmin dırnaqarası tarixçilər iddia etdilər ki, azərbaycanlılar əzəldən ariyai (fars dilli) olub, monqullar gəlib onları türkləşdirdi. Həmin uydurma nəzəriyyə elə güclü şəkildə təbliğ edildi ki, az qala böyük alimləri də çaşdıracaqmış. Lakin aşağıda görəcəyimiz kimi həqiqət onların dediyinin tam əksinə olub. Bu qısa açıqlamadan sonra indi isə əsas məsələyə keçib Azərbaycanda qədim etnoslar və onların etnik mənsubiyyətini araşdırırıq:*

Bölgənin və Azərbaycanın miladdan qabaqkı dövrlərinin tarixin əsasən daha çox mixi yazılar, onlarda əks etdirilən etnonim, toponim və antroponimlər vasitəsiylə öyrənmək məcburiyətindəyik.

Əlbəttə elə həmin yazılardan çox maraqlı məlumat əldə edirik. Həmin yazılara əsasən "Azərbaycan torpaqlarındakı türk hakimiyyəti miladdan qabaq 4 min il əvvəllərə gedib çıxır. Bu mənbələrdə xüsusilə arattalılar, qutlar (quttilər), lulubilər və hurrilər haqda məlumatlar vardır".[5]

Mənbələrə əsasən Azərbaycanda yaranmış ilk türk dövləti, Aratta (Arat+ta) dövləti olmuşdur. Aratta qədim Azərbaycanın dağlıq ərazisinə verilən ad idi. Mənası, sadəcə olaraq dağ deməkdir. Şumer-Akkad məktəb luğətində (miladdan qabaq 8-ci əsr) həmin sözdən " Arattu və Aratu" nümunələri dağ mənasında əks olunmuşdur".[6] Dağ sözü tağ, ta, ti, tu formalarında da

işlənmişdir. İndi də Azərbaycanda Qaflanta (qaflan+ta), Qaflantı (qaflan+ti) və sair belə dağ adları mövcuddur.

Azərbaycanda yaranmış digər türk dövlətlərindən biri də Qutti dövləti olmuşdur. Miladdan qabaq III minillikdə Urmuya gölünün qərb və cənub-qərb bölgəsində qutti tayfa birləşmələri mövcud idi. Onlar həmin miladdan qabaq III minilliyin 2-ci yarısından sonra dövlət kimi birləşdilər. "Qutti dövləti boy birləşmələrindən yaranmış bir dövlət idi. Onun tərkibində subar, turuk, kuman, bars, böri, qarqar, azər (as-az + ər), zəngi və sair türk boyları iştirak edirdi".[7] Azərbaycanda dövlət qurmuş quttilərdən qalan elbəyilərinin adı onların türk mənşəli olmalarına danılmaz sübutdur. "Akkad yazılarında adları çəkilən Qutti elbəyilərinin bəzilərinin adları: Yarlaqab, Yarlaqaş, Yarlaqan, Sarlaqab, Elulu (meş), İnim-Abaqeş (Orxon-Yenisey abidələrində Gültiginə, "İnim Gültigin" kimi müraciət olunub), Kurum (Kurum xan qədim türk xanı), Tirikan (Dirixan eləcədə Tarkan və Türkan modeli). "Qut" sözü türk etimolojisində: Hökmranlıq, uğur, can, ruh kimi mənalarda işlədilir və miladi 553-cü ildə hakimiyyətdə olan Avar (türk) hökmdarının adı Kuti xandır".[8] İbran (um) = Əmrən kitabi Dədə Qorqudda, Yarlaq (Yarlakar xan ağa, qədim türk yazısında).

Azərbaycanda dörd min il qabaqdan yaranmış, adları çəkilən Aratta, Lullubi və Qutti dövlətləri dövründə üzə çıxmayan lakin həmin dövlətlərin yaranmasında bir tayfa kimi iştirak edən turuklarda diqqəti cəbb edir. "İlk dəfə bu adın türklərlə ilgili olduğunu söyləyən H.Z.Kuşay iki lövhə də Turukku sözu olan sətri 1982-də Buxarestdə nəşr olunan elmi bülletendə çap etdirilmişdir. Bir çox alimlər, o cümlədən Z.Yampolski, Yusifov, S. Əlyarov assur mətnlərində xatırlanan turukku və ya turuki boyunu türk hesab etmiş və bu adın müxtəlif zamanlarda və müxtəlif dilli yazılarda torok, török, turuk, türki şəklində işləndiyini qeyd etmişlər".[9]

Əslində bu adı Mari mətnlərinin transkripsiyasında düzgün verməmişlər. Belə ki, türk sözünün qədim forması turuk şəkilindədir və assurca olan mətnlərdə də həmin forma əks olunmuşdur.

Miladdan qabaq 3-cü, 2-ci minilliklərdə su tayfaları da Zagros dağları və Urmiyə gölünün cənubunda yaşayırdı. " Bu etnonimin ilkin forması suv-sub olmuşdur. Bir sıra tədqiqatçılar su etnoniminin ikiçayarasının şimalində geniş bir ərazidə yaşayan subir-subar və Urmiyə gölü hövzəsində Suvbi-sumbi tayfa adlarının qısadılmış forması hesab edərək subir, subar adlarını sonra ki türk mənşəli subir-subar tayfalarının adı ilə eyniləşdirmişlər".[10]

Azərbaycanda digər qədim türk tayfalarından Lulubi (lulu+bi) və kaspi (kas+pi) tayfalarına işarə etmək olar. Lullubi, kaspi və suvbi "tayfalarının adlarında "bi", "pi" şəkilçisi qədim türk etnonimiyası üçün səciyyəvidir. Herodot skif(sak)lərin aqrippi, traspi adlı tayfalarının adını çəkir. Mərkəzi Asiya və Altayda erkən orta əsrlərdə barabi, nuşibi, syabi və tababi adlı türk mənşəli tayfalar məlumdur. Bu tayfaların adlarındakı "bi", "pi" şəkilçisi ilə lullubi, suvbi və kaspi etnonimləri də bizcə eynidir."[11]

Azərbaycanla bağlı olan başqa türk tayfalarından biri də kaslardır. Kaslar və ya kassilər Azərbaycanda yaşayan kaspilərlə ad və kök oxşarlığına da malikdir. Kas adının tarixi mənbələrdə çəkilməsi miladdan qabaq 2400-cü illərə qayıdır. Kas adlı bir çox türk tayfası mövcud olmuşdur. "Uyğurların 6 tayfası kas adlanmışdır. Orta Asiyada türk eli olan xakasların adı kas adından yaranmışdır. Orxun yazılarında Doğu Türkistanda yerləşən Kaşğar adı Kas adlanmışdır".[12] və sair.

Bunlardan əlavə Kassi və ya Kaslardan qalan Antroponimlər (şəxs adları) onların türk mənşəli olmalarına tutarlı sübut hesab edilə bilər. Kassi şahlarının adları: "Qandaş, Böyük Aqum, Qaş Tliyaş, Ulam Buriyaş (ulam = çapar + buri = böri = qurd), Qarındaş (qədim türkcə də qardaş) Qadaşman Enlil, Qara Qardaş, Qudur Enlil,... Qadaşman-Turqu"[13]. Eləcə də Atta-Ana, Marduk, Burra, Alban, Buritaş (Buri=Böri, Qurd), Sibar Buqaş, Karzi Yabku (yabğu), Mi- Turqu, Duri, Durqu və...

Kassilərdən çoxlu at adları da qalıb "timir aş (dəmir aş), kaşak – ti, buqaş, kuru-şe, buqaş, əgri-yaş, ham at-ti (xam at-ti)".[14]

Azərbaycan və Anadoluda yaşamış qədim türk tayfalarından biri də kumanlar olmuşlar. Miladdan qabaq 3-cü, 2-ci minillikdə sami və hurri tayfalarının təzyiqi ilə dağılmış subar boyları Konfederasiyasından qalan bəzi boyların Quzey İkiçayarası bölgələrdə və Fərat çayının qərb tərəfində yerləşdiyini görmək olar. Belə boylardan biri də komanlardır. Fəratın arxasına keçən kumuq və kuman boyları bir müddətdən sonra yerli tayfaların içində əriyib getdi. Lakin uzun müddət onların yerləşdiyi ərazilər Kumuq və Kuman ölkəsi kimi tanındı. Bu ölkə assur yazılarında kammano, urartu yazılarında Qamana şəklində verilir. Başqa Kuman ölkəsi isə Dəclə çayının şərqində qədim Azərbaycan sınırında idi. Görünür Ptolemey bu iki Kuman ölkəsini fərqləndirmək üçün əvvəlkini Kapadokiya Kumani adlandırmışdır. Urartu qaynaqları həmin çağlarda daha bir kuman boyunun Göyçə gölü yaxınlığında yaşadığını göstərir".[15]

Qədim assur və het yazılarında adları çəkilən digər türk tayfalarından biri də qaşqaylar olmuşlar. Miladdan qabaq 1320-1345-ci illərdə hökmranlıq etmiş II Murşil hakimiyyətinin 9-cü ilindən söhbət açan abidədə (Het abidəsi) qaşqayların da adı çəkilir. Məlum olduğu kimi, qaşqay soyu, qəbilə birləşməsidir. Azərbaycan qəbiləsi qaşqay indi də İranın cənubunda yaşayır. Deməli qaşqaylar miladdan 14 əsr qabaq ictimai-tarixi hadisələrdə iştirak etmişlər. Qaşqaylar Gəncədə və ona yaxın yerlərdə yaşamış və indi də bu adlı böyük soylar yaşayırlar".[16]

Assur çarı birinci Tiqlat Palasar miladdan qabaq (1115-1077)12-ci əsrin sonunda Fərat çaylarının yuxarı axarında qaşqaylarla qarşılaşır. Sonralar Qızıl İrmaq və Kelkit çaylarının yuxarılarında yaranmış kiçik Qaşqay bəyliyi miladdan qabaq 8-ci əsrə qədər davam etdi ... Qaşqayların qoşunları əsasən hetlər olsa da, onların Kuman, Az, Toqrama, Urmu, Subar, Bala və Dumanna (Duman-Tuman) adlı ölkələrlə əhatə olunmuşdu. Belə ki bəzi tədqiqatçılar çoxlu hat-türk uyğunluqları ortaya çıxarmışlar. Hətta Hat dilində elə söz var ki, bu gun də mənasını və formasını dəyişmədən türk dillərində işlənir. Məsələn "qut" sözü hər iki dildə ruh, can anlamındadır. Qaşqayların cənub-şərqində subar, mitan, ərmən (ər-mən), urum, kuman və başqa türk boyları, bölgələri vardı".[17]

Azərbaycanın adı ilə bağlı as-az etnonimi də türk dilli xalqlarda eləcə də Azərbaycanda çox yayqın şəkildə mövcud olmuşdur. Az boyu türk etnosu içində çox saylı soylardan biri idi. Aziya-Asiya adındakı, paralellik kimi az etnoniminin də as varyantı geniş yayılmışdır. "Miladdan qabaq 8-ci əsrin rübündə II Sarqon o vaxt Arrappa adlanan indiki Kərkük bölgəsindən Urmu gölünün güneyindəki Mazamu bölgəsinə gedən "Şahyolu" haqqında fərman vermişdi ki, yol təmir edilsin. Fərmanın icrası ilə bağlı məlumat verən şəxs kitabının sonunda yazılır: Mən yenidən Sari şəhərindən Dur-Atanati şəhərinə çıxıram. Arraphalılar, Dur-Atanatidən, Dur-Taliti şəhərinə hərəkət edirlər. (mən) yenidən Dur-talitidən Azari şəhərinə yönəlirəm.

Mətni dərc edən tədqiqatçılar Azari şəhərini Mazamua bölgəsində yerləşdirirlər. Bu bölgənin tarixindən məlumdur ki, əvvəllər orada lulu, turuk, zəngi, kuman boyları yaşayırdı".[18]

Əsasən türk boy adları "ər" sözü ilə geniş şəkildə işlədilmişdir. Məsələn xəzər, suvar, avar, tatar, qamer, dögər, padar və sair. Bu etnotoponim də " az" və "ər" hissələrə ayrılır. Eləcə də bir çox türk mənşəli xalqlarda as və az etnonim və toponiminə rast gəlinir. "Özbək, altay, qaraqalpaq və sair türk xalqları tərkibində uruq, soy, boy adı kimi işlənən az-as etnoniminə - Göytürk yazılarında az budun (az xalqı) və azkişi (az adamı) adına, Kuban epiqrafiyasında "eren Az ayrıltım (Az ərənlərindən ayrıldım) ifadəsinə rast gəlmək olur və sair. Azər (As-Az+ər)lərin bir qolu da Azkişi adlanmışdır. Bartold əvvəllər Xiristiyanlığı qəbul etmiş Qafqaz türklərinin sırasında Azkişi tayfalarının adını çəkir. Türküstan və Altayda Askisi adlı xeyli etnotoponim vardır. Göytürk yazılarında Az budun (Az xalqı) haqqında olan məlumat isə elm aləminə çoxdan bəllidir. Hələ 2-ci əsrdə Klavdi Ptolemey, Quzey Qafqazda Azara şəhəri və Azaraba (Azər+oba) kəndi olduğunu göstərir".[19]

Eyni zamanda "Asarhadonun eramızdan qabaq 673-cü ilə aid yazısında işkuz (işkuz), aşkuz (aşkuz), askuz (askuz) ölkəsinin hökmdarı- Partatua haqda danışılır. Fikrimizcə, bu skif etnonimi bizə Mahmud Kaşğarlının və İbn Xordadbehin əsərindən bəlli olan qədim türk etnonimi asgizi və ya askişi etnonimlərinin tam eynidir. Türk tayfalarının qədim vətənində- Altayda, Abakan çayının orta axarında kiçik Askizi çayı vardır. Bu rayon qabaqlar askizi dumasına daxil idi. İndi isə Askiz inzibati rayonudur. Bu çayın üzərində Askiz kəndi yerləşir."[20] Bu qısa açıqlamadan sonra bizcə As-Az etnosu və Arazi toponiminin türk mənşəli olmasına yetərli sübut hesaba edilə bilər.

Eyni zamanda Azərbaycanda işquz türklərinin də hakimiyəti mövcud olmuşdur. "Miladdan qabaq 9-10-cü əsrlərdən Azərbaycanla tanış olan işğuzlar miladdan qabaq 674-cü ildə İspakanın rəhbərliyi altında Azərbaycanın quzeyinə və güneyinə gəlmiş ... elə lap ilk günlərdən ölkədə hakimiyyət qura bilmişlər".[21]

Bu türk tayfaların Azərbaycanda yaşadığı və hakimiyəti dövrü ümumiyətlə təkcə Azərbaycanda deyil heç bölgəmizdə də ariyailərin və ya farsların olmasına dair tutarlı heç bir fakt mövcud deyildir. Hətta Azərbaycanda belə türk tayfalarının qədimliyi səbəb olmuşdur bir çox tədqiqatçılar fikirlərini dəyişib belə nəticəyə gəlsinlər ki, "sonrakı yüzilliklərdə Qabaq (ön) Asiyada yaşamış bir çox soylar xüsusən türk dillilər şərqə, Orta Asiya torpaqlarına hərəkət etmiş bir neçə yüzillikdən sonra onların əks prosesi başlanmış, onlar yenidən yaxın və qabaq Asiyaya, həmçinin Azərbaycan torpaqlarına gəlmişlər".[22]

Araz çayı sahilində, onun sağ axarında Herodotun saspirlər, akkad yazılarının subarium, şubaru və subarey eləcə də şumerlərin subir adlandırdığı türk tayfası yaşamışdır. Onlar Azərbaycanın Quzeyində yaşamış suvarlar, subirlər" dir.[23]

Bunlardan əlavə müxtəlif dövrlərdə Monqolustan çölərindən tutmuş Avropanın mərkəzinə qədər böyük bir ərazidə gəzib dolaşan türklər Azərbaycandan da yan keçmir və bəzən yerli soydaşlarının yaşadığı bu ərazidə də məskunlaşırlar. "Leonit Marovelinin sözlərinə görə I əsrin 70-ci illərində daha doğrusu İosif Flavinin dövründə hunlar Dəryal keçidinə sahiblik edirdilər. Bazuk və Ambazuk qardaşalrı Kartliyə oradan gəlmişdilər."[24]

Hun türkləri miladın ilk əsrlərində Azərbaycana gəlmiş və Azərbaycanın yerli türk əhalisi ilə qaynayıb qarışmışlar.[25]

Hələ “Arilərin (iran dillilərin) Ermənistana sakin olmalarından qabaq bir neçə türk tayfası orada məskunlaşmışdır”.[26]

Azərbaycanda yaşamış digər türk tayfalarından biri də kəngər (kəng -kang + ər )lərdir. “Qiyasəddin Qeybullayev kəngərlərin Zaqafqaziyada iki regionda-Albanyanın qərbində, Gürcüstan, Ermənistanla sərhəd rayonlarda və Naxçıvanda yaşamış olduqlarını, həmin tayafa ittifaqının Zaqafqaziyada məskunlaşmasına dair ilk məlumatlarını V əsr qədim erməni mənbələrində yada salındığını göstərir... Suriya mənbələrində Xosrov Ənuşirvanın (535-579) şimala yürüşündən “erməni-gürcü” sərhəddi zonasında onun “kəngər” xalqı ilə mübarizəsindən söhbət gedir.”[27]

İslam dövrü ərəb və fars tarixçiləri də Azərbaycanda türklərin olmasına dair yetərli dərəcədə məlumat vermişlər. Təbəri öz tarix əsərində İslamdan qabaq Azərbaycanda türklərin olmasına işarə edir: “Hişam İbn Kəlbinin fikrincə Raeş İbn Qeys İbn Səba ... Yəmənin padşahı idi və onun padşahlığı Mənuçehr dövrünə təsadüf edirdi. Onun sərkərdələrinin dostlarından biri Şümr İbn Ətaf Azərbaycanda türklərə yürüş etdi. Yürüşdə hər iki tərəfdən çoxlu ölən və əsir düşən oldu və o, öz başına gələnləri daş kitabəyə yazdı ki, Azərbaycan ölkəsində məşhurdur”.[28]

Həmzə İsfahani də (doğum ili hicri 270 – ci il) Raeşin Azərbaycana qoşun çəkməsi və Azərbayca türkləri ilə döyüşünə işarə edir”.[29]

Məhəmməd Ufi isə “ Cəvame-əl Hikayat və Ləvame-əl-Rəvayat” adlı əsərində Ömər İbn Əbdüləzizin xilafətindən (99-101-h.q) danışarkən həmin dövrdə 20 min Azərbaycan türkünün üsyanı və onların 4 min ərəb qoşunu ilə döyüşməsindən söhbət açır”.[30]

Samanı dövlətinin vəziri Əbuəli Məhəmməd Bələmi, Təbərinin tarix əsərini tərcümə və ixtisar edərək yazdığı əsərində Mənuçehrin Azərbaycanda türklərlə savaşdığını, türklərin yaşadığı ərazinin türkistandan Ruma qədər olduğunu, eləcə də Gəştaspın Azərbaycanda türklərlə savaşıb və bir çox türkün öldüyünü qeyd edir.[31]

Uməvi xəlifəsi Müaviyyə zamanında cahiliyyət dövrü Yəmənin məşhur dünya görmüş adamı Ubeyd İbn Şaryə Corhumi adlı bir şəxs var imiş. Müaviyyə onu Yəməndən Dəməşqə gətirtdirir. Ona sual verir, Ubeydin verdiyi cavablar “Əxabari Ubeyd İbn Şariyə” adı ilə yazılıb toplanır və sonralar ərəb tarixçilərinin istifadə mənbələrindən biri olur. Ubeyd cəvab verir: Azərbaycan türk ölkələrindəndir və türklər orada toplanmışlar.[32]

---------------------------

Qaynaqlar:


1- پروفسور شاپور رواساني « نادرستي فرضيه هاي نژادي آريا, سامي و ترك » انتشارات اطلاعات تهران 1380 صفحه 77

2- همان منبع صفحه 79

3- مهرزاد بروجردي « روشنفكران ايراني و غرب » ترجمه جمشيد شيرازي . ج: اول , نشر فرزان روز تهران 1377 صفحه 21

4- رضا بيگدلو « باستانگرايي در تاريخ معاصر ايران » نشر مركز تهران 1380 صفحه 234

5- Arazoğlu “Müxtəsər Azərbaycan tarixi” Bakı, 2000, səh. 13

6- “Azərbaycan tarixi” Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1994, səh. 78

7- Arazoğlu “Müxtəsər Azərbaycan tarixi” Bakı, 2000, səh. 15

8- Həmin mənbə, səh. 15

9-Fridun Ağasıoğlu “Azər xalqı” (seçmə yazılar), Ağrıdağ nəşriyyatı, Bakı, 2000, səh.42

10- “Azərbaycan tarixi” Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1994, səh. 80

11- Qiyasəddin Qeybullayev “Azərbaycan türklərinin təşəkkülü tarixindən” Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1994, səh.56

12- Ümid Niyaiş “Altaylardan Səhəndimizə” (türk mədəniyyətləri tarixi), cild I, Tehran 1382, səh.148

13- Həmin mənbə, səh. 148

14- Fridun Ağasıoğlu “Azər xalqı” (seçmə yazılar), Ağrıdağ nəşriyyatı, Bakı, 2000, səh.146

15- Həmin mənbə, səh. 48

16- Mir Əli Seyidov “Azərbaycan xalqının soy-kökünü düşünərkən” Yazıçı nəşriyyatı, Bakı, 1989, səh. 20

17- Fridun Ağasıoğlu “Azər xalqı” (seçmə yazılar), Ağrıdağ nəşriyyatı, Bakı, 2000, səh. 59

18- Həmin mənbə, səh. 19

19- Həmin mənbə, səh. 19-21

20- İsmail Mızı-Ulu “Mərkəzi Qafqazın etnik Tarihinin köklərinə doğru” TDAV, İstanbul,1993, səh. 23

21- M. Zehtabi “İran türklərinin əski tarixi” I cild, Əxtər nəşriyyatı, Təbriz, 1377, səh. 570

22- Mahmud İsmail “ Azərbaycan xalqını yaranması” Azərbaycan Dövlət Nəşriyyatı, Bakı,1995, səh. 5

23- Q. Voroşil “Azərbaycan dilinin təşəkkülü tarixinə dair - Azərbacan filologiyası məsələləri” Bakı, 1983, səh. 38

24- İsmail Mızı-Ulu “Mərkəzi Qafqazın etnik Tarihinin köklərinə doğru” TDAV, İstanbul,1993, səh. 23

25- محمد رحماني فر « نگاهي نوين به تاريخ ديرين تركهاي ايران » نشر اختر تبريز 1379 صفحه 105

26- پورمحمدعلي شوشتري ( مهرين) , عباس « ايران نامه يا كارنامه ايرانيان در عصر اشكانيان » جلد 2 تهران 1321 صفحه 339

27- Altay Məmmədov "Kəngərlər", Azərbayca Dövlət Nəşriyyatı, Bakı, 1996, səh. 124

28- طبري محمد بن جرير « تاريخ طبري يا تاريخ الرسل و الملوك » ترجمه ائدن ابوالقاسم پاينده جلد 1 انتشارات بنياد فرهنگ ايران ,تهران 1352 صفحه 293

29- اصفهاني , حمزه بن حسن « تاريخ پيامبران و شاهان ( سني ملوك الارض و الانبيا ) , ترجمه جعفر شعار , انتشارات بنياد فرهنگ ايران , تهران 1346 صفحه 131

30- « وارليق » ژورنالي 25-نجي ايل ياز 1382 ساي 1-128 , حجت الاسلام محمد حافظ زاده « نگاهي به زبان باستان تركي » صفحه 10

31- تاريخ بلعمی، تكلمه و ترجمه تاريخ طبری، صفحات 244، 433 و 478

32- M. Zehtabi "İran türklərinin əski tarixi" II cild, Əxtər nəşriyyatı, Təbriz, 1377, səh. 666